*Azərbaycan və Rusiya arasında imzalanmış qarşılıqlı müttəfiqlik Bəyannaməsi Ermənistanda zəlzələ effekti yaradıb. Belə ki, bir çox siyasi partiyalar və ayrı-ayrı siyasətçilər, ictimai fəallar Moskva Bəyannaməsini Ermənistan üçün ciddi siqnal kimi qiymətləndirir və rəsmi İrəvanın növbəti siyasi məğlubiyyətə uğradığını bildirirlər.*

# Moskva Bəyannaməsi ermənilər təşvişə salıb

Ermənistan yenə təşvişdədir. Bu dəfə erməniləri Azərbaycan və Rusiya prezidentlərinin imzaladıqları qarşılıqlı müttəfiqlik Bəyannaməsi ciddi narahat edir. Məsələn, Ermənistan Respublika Partiyası (ERP) hesab edir ki, Rusiya-Azərbaycan Bəyannaməsi Ermənistanda mövcud hökumətin dərhal istefası üçün siqnaldır. Partiyanın yaydığı bəyanatda bildirilir ki, "2018-ci ilin aprel–may aylarında Ermənistanda hakimiyyətin fəlakətli ələ keçirilməsi nəticəsində qlobal geosiyasi irəliləyişlər davam edir". Cəllad və qatil Serj Sarkisyanın partiyası iddia edir ki, "2028-ci ilin aprel-may aylarında Ermənistanda hakimiyyətin fəlakətli şəkildə ələ keçirilməsi nəticəsində Ermənistan və Qarabağın təhlükəsizlik sistemlərinin ən mühüm komponenti olan Ermənistan–Rusiya strateji və müttəfiqlik münasibətləri ardıcıl olaraq pozulub".

Partiya hesab edir ki, "qeyri-ardıcıl və savadsız xarici siyasət ucbatından Ermənistan öz suverenliyini genişləndirmək və möhkəmləndirmək üçün mövcud imkanlarını itirib, Cənubi Qafqaza nüfuz etməyə və Türkiyənin hərbi-siyasi amilinin güclənməsinə imkan verib və bu da Azərbaycanın qlobal miqyasda mövqeyini yaxşılaşdırıb". "Sənin yeganə müttəfiqin (Rusiya - red.) sənin düşməninin (Azərbaycanın - red.) müttəfiqi olduqda, bu, ilk növbədə, sənin zəifliyinin, sənin səhvinin, sənin hərbi-siyasi uğursuzluğun, sənin geosiyasi müflisliyin nəticəsidir", – deyə ERP-dən bildiriblər.

Xunta rejiminin məskunlaşdığı partiya "təəssüflə" qeyd edib ki, "Ermənistan hakimiyyətinin yaranmış vəziyyətdə yeritdiyi xarici siyasət regional strateji müttəfiqlə müqayisəyə gəlməyən bir siyasət olub və nəticədə bütün erməni xalqının narahatlığına səbəb olan yeni təzahürlər yaranıb". "Bugünkü Rusiya–Azərbaycan Bəyannaməsi Ermənistandakı mövcud rejimin dərhal istefası üçün yeni siqnaldır. Rusiya ilə yeni keyfiyyətə, məzmuna və dürüstlüyə əsaslanmalı olan hərtərəfli münasibətlər Ermənistan və Qarabağın gələcəyi üçün həyati əhəmiyyət kəsb edir. Gələcək hakimiyyət orqanları dərhal bu prosesə başlamalıdır", – deyə ERP-dan bildiriliblər.

Fevralın 23-də "Ermənistan" fraksiyasının üzvü Artur Xaçatryan parlamentdə keçirdiyi mətbuat konfransında etiraf edib ki, Moskva ilə Bakı arasında müttəfiqlik əməkdaşlığı haqqında imzalanan bəyannamə Ermənistanın xarici siyasətinin tam iflasa uğradığının nümayişinə çevrildi. Onun sözlərinə görə, əslində, Ermənistan "köhnə dostlarını itirdi, amma yeni dostlar yaratmadı". Xaçatryan hesab edir ki, Rusiya ilə münasibətlər "böyük uğursuzluqdur" və Ermənistan ictimaiyyəti hər gün bu uğursuzluğun şahidi olur. "Bu sənəd onu göstərir ki, münasibətlərdə (Rusiya və Ermənistan) nə isə səhv gedib", – deyə deputat təəssüfünü gizlədə bilməyib. Bundan başqa, erməni deputat deyib ki, Ermənistanın Avropa ilə münasibətləri də yaxşı deyil: "Bəlkə də onlardan daha pisdir. Hazırkı hakimiyyət 2,6 milyard avroluq maliyyə yardımını tez-tez xatırladır və onu az qala erməni xalqına hədiyyə kimi təqdim edir. Reallıqda bunlar beş il ərzində əldə oluna biləcək vəsaitlərdir... Vəsaitlərin böyük hissəsi borc şəklində veriləcək". Xaçatryan vurğulayıb ki, Ermənistanın ABŞ-la münasibətlərində heç bir irəliləyiş yoxdur, Çinlə münasibətlər o qədər aşağı səviyyədədir ki, müharibə zamanı bu ölkənin təmsilçiliyi səfirliyin ikinci katibi səviyyəsində olub. İranla münasibətlər də çox arzuolunmazdır, Belarus rəhbəri Ermənistanı, ümumiyyətlə, təhqir etməyə imkan verir. "Bizim gördüyümüz hər şey hakimiyyətin buraxdığı səhvlərin nəticəsidir", – deyən erməni deputat ölkəsinin uğursuz diplomatiyaya malik olduğunu etiraf edib.

***Səbuhi MƏMMƏDOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2022.- 25 fevral.- S.6.